# Azərbaycan-Çin münasibətlərində yeni mərhələ

## İki ölkə arasında əlaqələr çoxşaxəlidir



Bu gün ortada Azərbaycanla Çin arasında bu il aprelin 25-də imzalanmış "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələrinin Qurulması Haqqında Birgə Bəyanat" kimi çox əhəmiyyətli sənəd var. Bu sənədi Çin-Azərbaycan əməkdaşlığının, tərəfdaşlığının yol xəritəsi adlandırmaq olar.

Bütün sahələrdə əməkdaşlığı nəzərdə tutan bu bəyanat hər iki ölkənin gələcək inkişafı üçün yeni perspektivlər açır. Azərbaycan-Çin münasibətlərinə bir çox ölkələrin qibtə etməsi başadüşüləndir. Çin Xalq Respublikasının rəhbər şəxsləri, siyasi dairələri, xüsusilə respublikanın Sədri Si Cinpin dövlətimizin başçısı İlham Əliyevə böyük hörmət və ehtiramla yanaşır, inkişafımız, dünyadakı mövqeyimiz yüksək qiymətləndirilir.

3

Azərbaycan.- 2025.- 7 sentyabr, №190.- S.1; 3.



# Azərbaycan-Çin münasibətlərində yeni mərhələ

## İki ölkə arasında əlaqələr çoxşaxəlidir

**Dünyanın ən inkişaf edən və böyük dövlətlərindən biri olan Çin Xalq Respublikasında Şanxay Əməkdaşlıq Təşkilatının 25-ci sammitinin yüksək səviyyədə təşkili, toplantıda aparıcı dövlətlərin rəhbərlərinin iştirakı və çıxışları, eləcə də Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış qələbənin 80-ci ildönümünə həsr olunmuş paradın keçirilməsi bəşəriyyətə sülh, əmin-amanlıq, əməkdaşlıq, dostluq üçün yeni perspektivlər vəd etməklə, dünya ölkələrinə yeni mesajlar verdi.**

ŞƏT-in 25-ci sammiti ilk növbədə Çinin dünyada olan yüksək nüfuzunun və rolunun bir təzahürü kimi özünü göstərdi. Pekin dövlətlərin və xalqların inkişafını ayrı-seçkilikdə deyil, əməkdaşlıqda, qarşılıqlı sağlam münasibətlərdə görür. O, imperialist maraqlardan uzaqdır. Hərbi ittifaq yaratmaq, bloklara qoşulmaq fikri yoxdur. Başlıca məqsəd iqtisadiyyatı inkişaf etdirmək, təhlükəsizliyi təmin etmək, milli maraqları qorumaqdır.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qəzetimizə açıqlamasında bildirib ki, bu müasir dünyada çox düzgün bir seçimdir və Çinin inkişafının əsasıdır. Pekin beynəlxalq münasibətlər sistemində ictimai-siyasi sabitliyə malik olan, sülhə, təhlükəsizliyə, əmin-amanlığa, iqtisadi inkişafa və yüksək etimada, tərəfdaşlığa əsaslanan ölkələrlə sıx əməkdaşlıq etməyə böyük önəm verir. Azərbaycan bu baxımdan xarakterikdir və son illərdə yüksələn xətt üzrə inkişaf edən münasibətlər buna sübutdur. "Bu gün orta-da Azərbaycanla Çin arasında bu il aprelin 25-də imzalanmış "Hərtərəfli Strateji Tərəfdaşlığın Əlaqələrinin Qurulması Haqqında Birgə Bəyanat" kimi çox əhəmiyyətli sənəd var. Bu sənədi Çin-Azərbaycan əməkdaşlığının, tərəfdaşlığının yol xəritəsi adlandırmaq olar. Bütün sahələrdə əməkdaşlığı nəzərdə tutan bu bəyanat hər iki ölkənin gələcək inkişafı üçün yeni perspektivlər açır. Azərbaycan-Çin münasibətlərinə bir çox ölkələrin qibtə etməsi başadüşüləndir. Çin Xalq Respublikasının rəhbər şəxsləri, siyasi dairələri, xüsusilə respublikanın Sədri Si Cinpin dövlətimizin başçısı İlham Əliyevə böyük hörmət və ehtiramla yanaşır, inkişafımız, dünyadakı mövqeyimiz yüksək qiymətləndirilir. Cənab İlham Əliyev bu mənada bildirir: "Bizim çox mehriban münasibətlərimiz var, görüşlərin birində o, məni Çinin yaxın dostu adlandırıb. Bunu mən bir növ mükafat kimi qəbul edirəm. Onunla görüşməyə, çox səmimi və açıq qaydada söhbət aparmağa hər zaman məmnunam. O, çox dərin biliklərə malik olan, Çinin milli maraqlarına və bütövlükdə qlobal məsələlərə gəldikdə, çox qətiyyətli mövqeyi ilə seçilən insandır. Bildiyimiz kimi, Azərbaycan Sədr Cinpinin inkişaf, təhlükəsizlik və sivilizasiyalar ilə bağlı bir neçə təşəbbüsünə qoşulub. Biz onun mövqeyinə şərikik. "Bir kəmər, bir yol" təşəbbüsünü açıq şəkildə dəstəkləmiş və sonradan qoşulmuş ilk ölkələrdən biri də bizik və öz ölkəmizdə xeyli infrastruktur layihələrini həyata keçirmişik".

Qarşılıqlı hörmət və ehtiram, cənab İlham Əliyevin fəaliyyətinə yüksək qiymət verilməsi Azərbaycan Prezidentinin ŞƏT-in 25-ci sammitində iştirak üçün Çinə səfəri zamanı özünün aydın ifadəsini tapdı. 20-dən çox dünya liderinin və 10 beynəlxalq təşkilatın nümayəndə heyətinin qatıldığı bu tədbirdə Prezident İlham Əliyev digərlərindən fərqli olaraq xüsusi təntənə ilə qarşılandı", - deyə deputat bildirib.

T.Rzayev qeyd edib ki, Prezident İlham Əliyevin tədbirdəki çıxışı mühüm çağırışlarla zəngin və tutarlı idi. Dövlətimizin başçısı çıxışında Çinin dünyadakı mövqeyinə, sülh, təhlükəsizlik, inkişaf uğrunda səylərinə böyük önəm verməklə bildirdi ki, Azərbaycan Çinin irəli sürdüyü Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü dəstəkləyir. Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülən Qlobal İdarəetmə Təşəbbüsü BMT Nizamnaməsinə və bey-



nəlxalq hüquqa hörmətin ifadəsi kimi təqdirəlayiqdir. Beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünün dəstəklənməsinə yönəldilən bu təşəbbüslər Çinin sülh amalının təzahürüdür. Çinin xarici hərbi müdaxilə və faşizm üzərində qələbəsinin 80 illiyi münasibətilə keçirdiyi təntənəli parad da sülhə istəkdən, faşizmə kəskin nifrətdən qaynaqlanır.

Komitə sədri vurğulayıb ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın paradı qürurla izləməsi yeni məna ifadə edir: "Faşizmdən, təcavüzdən uzun illər əziyyət çəkən Azərbaycanın qələbə paradları yada düşür və insan qürurlanır. Ölkəmizin rəhbərinin qalib bir dövlətin və xalqın lideri, Ali Baş Komandanı kimi Çində yüksək səviyyədə qarşılanması, paradı izləməsi, bir sıra dövlətlərin rəhbərləri, şirkətlərin sahibləri ilə görüşləri xalqımızı qürurlandırır, ruhlandırır və gələcək uğurlarımızdan xəbər verir. Çünki səmərəli görüşlər, qarşılıqlı münasibətlər aydın göstərir ki, Azərbaycan-Çin əlaqələri son illər keyfiyyətcə yeni mərhələyə yüksəlib və hər iki ölkə arasında iqtisadi-ticari, nəqliyyat, enerji, mədəniyyət, turizm sahələrində əməkdaşlığın möhkəmlənməsinə imkanlar yaranıb. Tərəflər arasında hərtərəfli strateji tərəfdaşlığın mövcud olması, dostluq, qardaşlıq münasibətlərinin genişlənməsi xalqların, dövlətlərin milli maraqlarına xidmət edir və gələcək inkişafa hesablanıb".

T.Rzayev xatırladıb ki, Azərbaycan Prezidenti Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında çıxışı zamanı ölkələrimiz arasında münasibətlərə böyük önəm verərək, bir daha bildirdi ki, Azərbaycan regionda Çinin etibarlı tərəfdaşıdır. Bu, real amallara və amillərə arxalanan ifadədir. Azərbaycan bu gün beynəlxalq və regional sülhün, təhlükəsizliyin qorunmasına, təmin edilməsinə, genişmiqyaslı iqtisadi, nəqliyyat və enerji layihələrinin həyata keçirilməsinə öz töhfələrini verir və bu sahədə səylərini artırmaqdadır. Bunun nəticəsidir ki, Azərbaycan ilə Çin arasında tranzit daşımalarının həcmi 2024-cü ildə rekord səviyyəyə - 378 min tona çatıb. Bu əvvəlki illə müqayisədə 8 faiz çoxdur. Ötən il Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta dəhlizlə 287 marşrut qatarı yola salınıb.

"Prezidentimizin bildirdiyi kimi, bu gün Orta dəhlizin strateji çəkisi durmadan artır və dünya ölkələrinin bu dəhlizə marağı böyükdür. Çindən Avropaya, Avropadan Asiyanın dərinliklərinə uzanan yol həm etibarlı, həm də qısamüddətli olması ilə seçilir. Yüklərin Çindən Avropaya ən qısa vaxtda çatdırılmasını təmin edir. "Şimal-Cənub" və "Şərq-Qərb" dəhlizlərinin inkişafı Bakını bir tranzit mərkəzinə çevirir və nəqliyyat infrastrukturu sahəsində mövqelərini möhkəmləndirir. Azərbaycanla Çin arasında ən mühüm sahələrə dair imzalanmış 100-dən artıq sənəd deməyə əsas verir ki, əlaqələr çoxşaxəlidir, münasibətlər sağlamdır və qarşılıqlı səfərlər, görüşlər hər iki xalqın xoşbəxtliyinə, ölkələrin inkişafına istiqamətləndirilib", - deyə deputat əlavə edib.

T.Rzayev bildirib ki, Azərbaycan Prezidentinin sülh, təhlükəsizlik, əmin-amanlıq, dostluq və əməkdaşlıq çağırışları Çin Xalq Respublikası rəhbərləri tərəfindən dəstəklənir və yüksək qiymətləndirilir. Dövlət rəhbərinin bu ölkəyə son səfərləri, yüksək səviyyədə, böyük hörmət və ehtiramla qarşılanması, keçirilən yüksəksəviyyəli görüşlər bunun aydın ifadəsidir və göstərir ki, Bakı Qərblə əməkdaşlığa yeni önəm verməklə bərabər, həm də Çin kimi qüdrətli bir dövlətlə də əlaqələri yüksək səviyyədə qurur və tərəfdaşlığı uğurla davam etdirir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*